Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
14 sentyabr 2018-ci il tarixli iclasının
qərarı ilə (protokol № 1) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetində**
**Reytinq Qiymətləndirməsi haqqında**
**MÜVƏQQƏTİ QAYDALAR**

## I.Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Pedaqoji Universitetində (bundan sonra - "Universitet") Reytinq qiymətləndirməsinin (bundan sonra – "RQ") tətbiqinin əsas məqsədi tədris prosesinin keyfiyyətinin artırılması istiqamətində professor-müəllim heyətinin, kafedraların və fakültələrin illik fəaliyyətini obyektiv, vahid meyarlarla müəyyənləşdirməkdir.

1.2. Universitetdə RQ-nin yaradılması konsepsiyası universitetin, o cümlədən fakültə və kafedraların fəaliyyətinin müasir dövrdə ali təhsil müəssisələri qarşısında qoyulan milli və beynəlxalq tələblərə uyğunlaşdırılması ilə bağlıdır.

1.3. RQ Universitet üzrə professor-müəllim heyətinin, kafedraların və fakültələrin illik elmi-pedaqoji fəaliyyətinin qiymətləndirilməsi üçün tətbiq edilir.

1.4. RQ Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının qanunlarına, digər normativ-hüquqi aktlarına, Universitetinin Nizamnaməsinə, beynəlxalq və Azərbaycan ali təhsil müəssisələrində qiymətləndirmənin tətbiqi təcrübəsinə əsasən tərtib edilmişdir.

## II. Reytinq qiymətləndirməsinin məqsədləri və əhatə dairəsi

2.1. RQ-nin əsas məqsədləri aşağıdakılardır:

2.1.1.professor-müəllim heyətinin, kafedraların və fakültələrin mövcud pedaqoji, elmi-tədqiqat və ictimai fəaliyyətinin vəziyyətinin obyektiv şəkildə qiymətləndirilməsi;

2.1.2.professor-müəllim heyətinin Universitet daxilində və ictimai həyatdakı (elm-təhsil sahəsinə aid və ya dövlət əhəmiyyətli) fəaliyyətinin səviyyəsinin vahid meyarlar əsasında qiymətləndirilməsi;

2.1.3.fakültələrin və kafedraların resurslarının, tədris işinin təşkilinin və elmi-tədqiqat işlərinin səviyyəsinin müəyyənləşdirilməsi;

2.1.4.professor-müəllim heyətinin, kafedra və fakültələrin tədris prosesinin yaxşılaşdırılmasına fərdi və kollektiv töhfəsini nəzərə almaqla onların maddi və mənəvi həvəsləndirilməsi;

2.1.5.professor-müəllim heyətinin, kafedra və fakültələrin RQ nəticələrini ümumiləşdirməklə onların fəaliyyətinin dinamikasının izlənilməsi.

2.2. Reytinq aşağıdakı fəaliyyətlər üzrə müəyyənləşdirilir:

2.2.1. pedaqoji fəaliyyət;
2.2.2. elmi-tədqiqat fəaliyyəti;
2.2.3. ictimai fəaliyyət;

2.3. Hər bir fəaliyyət növü müəyyən edilmiş müvafiq balla qiymətləndirilir və toplanan ballar əsasında reytinq müəyyən edilir.

2.4. Kafedra üzrə RQ-nin hazırlanması üçün hər bir müəllim tərəfindən onun il ərzində fəaliyyətini özündə əks etdirən məlumatlar fərdi qaydada 25 noyabr tarixinədək kafedraya təqdim edilir və onların əsasında kafedra üzrə müvafiq cədvəl (Əlavə 1) doldurulur.

2.5. Fakültə üzrə RQ-nin hazırlanması üçün hər bir kafedranın professor-müəllim heyəti tərəfindən il ərzində həyata keçirilmiş fəaliyyəti özündə əks etdirən cədvəl (Əlavə 1) dekanlığa təqdim edilir və onların əsasında fakültə üzrə müvafiq cədvəl (Əlavə 2) doldurularaq 01 dekabr tarixinədək təsdiq olunmaq üçün Keyfiyyətin təminatı şöbəsinə təqdim edilir.

2.6. Təqdim edilmiş sənədlərin və məlumatların dəqiqliyi universitetin rektoru yanında Keyfiyyət Komissiyası tərəfindən yoxlanılır və universitet üzrə Reytinq qiymətləndirməsi Yekun aktı tərtib edilir.

2.7. Professor-müəllim heyətinin, kafedra və fakültələrin fəaliyyətinin RQ nəticələri hər təqvim ilinin sonunda universitet Elmi Şurasının iclasında təsdiq edilir.

## III.Universitetdə Reytinq Qiymətləndirməsinin aparılması qaydaları

3.1. Fərdi reytinq (FR) müəllimin cari ildə topladığı balın (A) 75 faizi və ötən ildə topladığı balın (B) 25 faizinin cəminə əsasən formalaşır. Düstur aşağıdakı kimidir[1]:

$$FR = 0{,}75xA+0{,}25xB$$

3.2. Kafedranın professor-müəllim heyətinin topladığı ballar əsasında kafedranın reytinqi (KR) formalaşır və o, aşağıdakı düstur ilə hesablanır:

$$KR = \frac{FR1 + FR2 + FR3 + \cdots + FRn}{n}$$

Burada, n- kafedranın ştatında olan əməkdaşların sayını göstərir.

3.3. Kafedra müdirinin reytinqinə (KmR) öz fəaliyyəti ilə yanaşı kafedranın reytinqi də təsir edir. KmR aşağıdakı düstur ilə hesablanır:

$$KmR= FR + 0{,}1xKR$$

3.4. Bütün kafedraların topladıqları ballar əsasında fakültənin reytinqi (FaR) müəyyən olunur. FaR aşağıdakı düstur ilə hesablanır:

$$FaR = \frac{KR1 + KR2 + KR3 + \cdots KRn}{n}$$

Burada, n- fakültədə fəaliyyət göstərən kafedraların sayını göstərir.

---

[1]Qiymətləndirmənin tətbiq olunmağa başlandığı 2018-ci il istisnadır və bu il müəllimin reytinq qiymətləndirməsi yalnız builki fəaliyyətinə əsasən topladığı bal əsasında formalaşacaq.

3.5.Dekanın reytinqinə (DR) öz fəaliyyəti ilə yanaşı fakültənin reytinqi də təsir edir. DR aşağıdakı düstur ilə hesablanır:

$$DR = FR + 0{,}1xFaR$$

**IV. Reytinqin hesablanması və nəticələri**

4.1.Fakültələr tərəfindən RQ üçün təqdim edilən sənədlərin araşdırılması, reytinqlərin hesablanması, müəyyən təhlillər üçün meyarların, metodların və vasitələrin işlənilməsi Universitetin rektoru yanında Keyfiyyət Komissiyası tərəfindən aparılır və komissiyanın tərkibi hər il Elmi Şuranın qərarı ilə müəyyən olunur.

4.2. Keyfiyyət Komissiyanın üzvlərinin RQ ilə bağlı vəzifələri aşağıdakılardır:

4.2.1. Universitet daxilində RQ ilə bağlı izahat və maarifləndirmə işləri aparmaq;

4.2.2. Hər ilin mart və oktyabr aylarında bütün fakültələrdə tələbələr arasında onlara əvvəlki semestrdə dərs demiş müəllimlərin tədris keyfiyyətlərinin müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuş sorğunu keçirmək və sorğu (Əlavə 3) ilə bağlı digər məsələləri həll etmək;

4.2.3. Fakültələrdən daxil olan sənədlərin həqiqiliyini və düzgünlüyünü yoxlamaq;

4.2.4. Professor-müəllim heyətinin, kafedra və fakültələrin reytinqini hesablamaq;

4.2.5. Reytinq cədvəlində qiymətləndirilməsi nəzərdə tutulmayan, lakin universitet üçün əhəmiyyətli hesab olunan hər hansı fəaliyyəti və ya nailiyyəti müzakirə edərək cədvəlin "Digər" adlı hissəsində qiymətləndirmək (oxşar fəaliyyət və ya nailiyyət üçün nəzərdə tutulmuş ballara uyğun olaraq);

4.2.6. İl üzrə RQ-nin nəticələri haqqında yekun akt tərtib edib rektora təqdim etmək;

4.2.7. Əldə olan məlumatlar əsasında analitik və statistik informasiya hazırlamaq;

4.2.8. RQ ilə bağlı digər məsələləri həll etmək.

4.3. Müəllimlərin, kafedra və fakültələrin topladıqları bala əsasən onların reytinqi aşağıdakı kimi müəyyənləşdirilir:

- Nümunəvi;
- Fəal;
- Fəal olmayan.

4.4. Nümunəvi kateqoriyaya daxil olan müəllim, kafedra, kafedra müdiri, fakültə və dekan maddi və ya mənəvi rəğbətləndirilir. Fəal olmayan müəllimlərin, kafedra və fakültələrin fəaliyyəti təhlil olunur, nəzarətə götürülür və lazım olduqda universitet Elmi Şurasında müzakirə olunur.

4.5. Reytinq Qiymətləndirməsinin nəticələrinə görə rəğbətləndirmənin forması və həcmi hər il universitetin mövcud maliyyə imkanları çərçivəsində rektorun təklifi əsasında universitet Elmi Şurası tərəfindən təsdiq edilir.

4.6. RQ-nin nəticələri cildlənərək tanışlıq üçün Universitetin kitabxanasında saxlanılır.

4.7. Professor-müəllim heyətinin, kafedraların və fakültələrin reytinq nəticələrinin dinamikası rəhbərliyə idarəetmədə aşağıdakı qərarları vermək üçün obyektiv əsas yaradır:

- illik fəaliyyətin qiymətləndirilməsinə əsasən diferensial əmək haqqı sisteminin tətbiqində;
- vəzifə seçkilərində (müsabiqə yolu ilə) və ya təyinatında;
- əmək müqaviləsi müddətinin razılaşdırılmasında;
- elmi-tədqiqat işlərinin aparılmasında;
- elmi konfranslarda iştrak edilməsində;
- peşəkar inkişaf ilə bağlı kurslara göndərilməsində;
- avadanlığın (inventarın) alınmasında.

4.8. Bu qaydalar Universitetin Elmi Şurasında qəbul olunur və rektor tərəfindən təsdiq olunur. Bu qaydalara əlavə və dəyişikliklər eyni prosedura ilə həyata keçirilir.

4.9. Bu qaydalar əsasında tənzimlənməyən məsələlər Keyfiyyət Komissiyasının təklifi ilə rektor tərəfindən təsdiq oluna bilər.